MİRAS
Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi

mədəni irs ustad məktəbi

QEYRİ-MADDİ MƏDƏNİ İRS

TƏDRİS VƏSAİTİ

Hazırlayan:
Dr. Fariz Xəlilli

BAKI – 2026

Kitabın məzmunu “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin cavabdehliyindədir, bu baxımdan kitabın məzmunu Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin mövqeyini əks etdirmir.

Kitab Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Qeyri Hökumət Təşkilatları üçün elan etdiyi 2025-ci il Qrant müsabiqəsi çərçivəsində nəşr olunmuşdur.

Xəlilli, Fariz. (Hazırlayan). (2026). Qeyri-maddi mədəni irs: Tədris vəsaiti.
Bakı: *"AFPoliqrAF"*, 2026.– 300 səh.

10 mart – 24 aprel 2026-cı il tarixlərində “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyinin Mədəni İrs Beynəlxalq Ustad Məktəbi qeyri-maddi mədəni irs ustad dərslərinə başlamışdır. Dərslər YUNESKO-nun Qeyri-maddi mədəni irs ilkin siyahısında olan Azərbaycanın 24 qeyri-maddi mədəni irsi mövzularında olub, Azərbaycan irs mütəxəssisləri tərəfindən aparılmışdır. Mühazirələr əsasında tədris vəsaiti nəşrə hazırlanmışdır.

Elmi redaktor: Prof.Dr. Şikar Qasımov
Rəyçi: Prof.Dr. Kübra Əliyeva

Koordinator: Məleykə Hüseynova
Fotolar: Fariz Xəlilli, Məleykə Hüseynova, Nərmin İmanova, Süleyman Süleymanov

ISBN: 978-9952-598-51-3

© “Miras” Mədəni İrsin Öyrənilməsinə Kömək İctimai Birliyi, 2026

ÇAY MƏDƏNİYYƏTİ: TARİXİ, SOSİAL ROLU VƏ MƏRASİM ƏNƏNƏLƏRİ
Ceyhun İsmayılov 201

İFTARIN SOSİAL VƏ DİNİ ƏHƏMİYYƏTİ
Əhməd Niyazov 211

SEYİD YƏHYA BAKUVİNİN "ŞƏFAÜL-ƏSRAR" ƏSƏRİNDƏ SUFİ ORUCU VƏ
MİR HƏMZƏ SEYİD NİGARİNİN "ÇAYNAMƏ" MƏSNƏVİSİNDƏ ÇAY MƏDƏNİYYƏTİ
ƏSASLI SUFİ ƏDƏBİ
Fariz Xəlilli 217

BAYRAM FENOMENİ: SOSİAL ZAMAN, QONAQPƏRVƏRLİK, PAYLAŞMA VƏ
BARIŞIN RİTUAL MƏDƏNİYYƏTİ
Pərvin Ahənçi 222

ƏNƏNƏDƏN İRSƏ: NOVRUZ MƏRASİMLƏRİ KOLLEKTİV YADDAŞ VƏ
İDENTİKLİK KONTEKSTİNDƏ
Pərvin Ahənçi 243

NOVRUZ OYUNLARI VƏ XALQ ƏYLƏNCƏLƏRİ
Kübra Əliyeva 258

NAR FESTİVALININ KEÇİRİLMƏSİ TARİXİ VƏ GÖYÇAY RAYONUNUN İQTİSADİ,
SOSİAL-MƏDƏNİ HƏYATINDAKI ROLU
Adil Məmmədov 268

NARIN AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ YERİ VƏ SİMVOLİKASI
Ümidə Məcnunlu 273

"SƏMƏNİ" ADLI QƏDİM VƏ MÜQƏDDƏS MAYE-İÇKİNİN HAZIRLANMA ƏNƏNƏSİNİN
BƏRPASINA DAİR
Kübra Əliyeva 276

SƏDƏF SƏNƏTİ: TARİXİ, MAHİYYƏTİ VƏ TƏTBİQİ
Balabəy Balabəyov 283

AZƏRBAYCAN MUĞAMI HAQQINDA BƏZİ QEYDLƏR
Mehman Mikayılov 286

FOTOLAR 290

NARIN AZƏRBAYCAN MƏDƏNİYYƏTİNDƏ YERİ VƏ SİMVOLİKASI

Ümidə Məcnunlu
Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı,
Kənd Təsərrüfatı Nazirliyi Üzümçülük və Şərabçılıq ETİ,
Azərbaycan Kooperasiya Universiteti
https://doi.org/10.30546/19023.2026.1001425

Azərbaycanda narın müxtəlif növləri yetişdirilir. Azərbaycan dünyada nar sortlarının sayına görə birinci yerdə qərarlaşmışdır. Bu da Azərbaycan təbiətinin zənginliyindən, burada doqquz iqlim zonasının mövcudluğundan irəli gəlir. Əbəs yerə narı meyvələrin şahı adlandırmırdılar. Deyilənə görə, padşahların tacının forması nar tacının formasından götürülüb. Nar təkcə gözəlliyinə, dadına görə deyil, həm də faydasına görə meyvələrin şahı sayıla bilər. Tərkibi dəmir, kalsium, fosfor mineralları, C və B1, B2 vitaminləri ilə zəngindir. Nar yeyən insanların sinir sistemi və sümüklərində mineral çatışmazlığı ilə bağlı problem olmur. İbn Sina demişdir: "Əgər böyrəklərinizdə iltihab və yaralar (pielonefrit, nefrit) varsa, şirin nardan bol-bol yeyin, göz qaşınması zamanı isə narşərabı sürmə kimi gözə çəkin. Diş əti qanamalarında, ağız yaralarında, anginalarda, ağızdan iy gəlməsində nar qabığını və ya nar çiçəyini 5 dəqiqə suda qaynadıb qarqara edin".

Azərbaycan ədəbiyyatında narın xüsusi rolu var. Əfsanələrdə deyilir ki, nar sevgi simvoludur. Sevgini sözlərlə bildirmək nəzakətsizlik hesab olunurdu. Gənc oğlanlar qızlara nar gətirməklə öz duyğularını açır və sevgilərini etiraf edirdilər.

Füzulinin "Meyvələrin söhbəti" əsərində nar meyvələrlə mübahisə edərkən özü haqqında belə söyləyir:

Rəngdə kim mənim gülümə çatar?
Hər kəs tərifləməli bir şey düşünsə,
Məndə olan turş-şirinliyi tərifl ər

Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi "İsgəndərnamə" poemasında narı belə xatırlayır:

Şaha yar olunca o böyük zəfər,
Güldü nar gülütək, açıldı güllər

Nar sortuna görə şirin, turş və kəmşirin olur. Nara turş dadı verən onun şirəsində olan limon turşusudur. Nardan kompotlar, şərablar, nardança hazırlanır. Azərbaycan kulinariyasında narın özünəməxsus yeri var. Narın turş qırmızımtıl ləti desert və salatlarda, həmçinin sərinləşdirici içkilərin hazırlanmasında istifadə edilir. Narı dondurma ilə masaya vermək, zərif desert üçün qatı qaymaqla və beze ilə qarışdırmaq və ya salatların üzərinə səpmək olar. Quzu və can ətindən, balıqlardan növbənöv nar qovurma hazırlanır. Yağlılığın azaldılması üçün yeməklərə nar yağı əlavə edilir.

Nardan çaxır da hazırlanır. Bu isə narın emalından alınan şirənin fermentləşdirilməsi yolu ilə hazırlanır. Orta dərəcədə nar çaxırının istehlak edilməsi orqanizmə yalnız fayda gətirəcək. Nar meyvəsində olan faydalı maddələrin şərabda qorunub saxlanılmasına imkan verən texnologiyaların tətbiqi nar çaxırını müalicəvi və pəhriz xüsusiyyətli içkiyə çevirir. Könül oxşayan qırmızı rəngi və narın meyxoşluğunu damla-damla hiss etdirən nar çaxırı şirin desertlər və meyvələrlə gözəl uyğunluq təşkil edir.

Nar turşusu isə təmizlənmiş narların bişirilmə yolu ilə alınır. Nar turşusu əsasən yeməklərdə sous kimi istifadə olunur. Yüksək təzyiq və qan şəkərinə qarşı yararlıdır.

Nar haqqında Qurani Kərimdə 3 ayədə yazılır (Ənam 99, Ənam 141, Rəhman 68).

Müqəddəs kitabımızda narın həm dünyamızın, həm də cənnətin ən gözəl meyvələrindən olduğu haqqında məlumatlar verilir. Nar Quranda ən çox adı çəkilən meyvələrin içində xurma, zeytun və üzümdən sonra dördüncüdür.

Bir çox Azərbaycan rəssamları öz yaradıcılığında nar mövzusuna müraciət ediblər. Azərbaycan təsviri sənətinin böyük şəxsiyyətlərindən biri olan Toğrul Nərimanbəyov öz əsərlərində nar mövzusuna dəfələrlə müraciət etmişdir. Nar Toğrul Nərimanbəyov yaradıcılığının rəmzinə çevrilmişdir. Rəssam öz tablolarında narı böyük şövqlə, həvəslə təsvir edərək bu şahanə meyvənin gözəlliyini ustalıqla, sevə-sevə kətana köçürmüşdür. Onun "Natürmort Narlar", "Narlar", "Natürmort Nar ağacı", "Şərq nağılı" və başqa əsərlərində bunun şahidi oluruq. Rəssamın əsərlərində miniatür boyakarlığından gələn ənənəvi şərti dekarativ üslubla yeni ralistik təsvir üzvü əlaqələndirilmişdir. Toğrul Nərimanbəyov çağdaş Azərbaycan təsviri sənətinin yetişdirdiyi, böyük şəxsiyyətlərdən biri olub. T.Nərimanbəyovun yaradıcılığının səciyyəvi xüsusiyyətlərini özündə əks etdirən natürmortlar da bu janrın onun yaradıcılığında yeni bir zirvəyə yüksəldiyindən xəbər verir. Müxtəlif əşya və predmetləri, ləziz Azərbaycan nemətlərini və xüsusən də narı natürmortlarında məhəbbətlə əks etdirən rəssam, tamaşaçıda xoş duyğular yaradan, onu sehrli və duyğulandırıcı aləmə aparan bitkin əsərlər qalereyası yaradıb. Rəssamın bu cür əsərlərinə "Natürmort. Narlar", "Narlar" "Natürmort. Nar ağacı"və başqalarını misal göstərmək olar.

Sərt üslubun ilk nümayəndələrindən olan dünya şöhrətli rəssam Tahir Salahov da natürmortlarında nar təsvirlərinə geniş yer vermişdir. Azərbaycanın memarlıq irsinin ən görkəmli abidələrindən biri sayılan Şəki Xan sarayının divar rəsmləri Azərbaycan rəssamlıq və xalq tətbiqi sənətinin nadir incilərindəndir. Sarayın divarları müxtəlif mövzulu rəsmlərlə bəzədilmişdir. Bunların arasında nar ağacının təsviri interyerə xüsusi gözəllik verir. Rəsm əsərlərində göy, qımızı, qızılı rənglərdən daha çox istifadə edilmişdir. Bu da təsvirlərin bədii təsirini, milli koloritini gücləndirir. Sarayın rəssamlıq nümunələri bu günə qədər öz ecazkarlığını qoruyub saxlayır.

Dünya şöhrətli Azərbaycan rəssamı, YUNESKO Rəssamlar İttifaqının üzvü akademik Sakit Məmmədov da özünün "İlin dörd fəsli", "Bahar qızı" adlı əsərlərində nar meyvəsini özünə məxsus tərzdə böyük məharətlə Novruz xonçasının şah meyvəsi kimi təsvir etmişdir.

Azərbaycan rəssamlıq məktəbinin ən görkəmli nümayəndələrindən biri, rəssam Səttar Bəhlulzadə də həyat rəmzi olan meyvələr şahının gözəlliyini öz əsərlərində təsvir edib. Onun "Zəfəranla narlar", "Göyçay narı", "Narlar" adlı tabloları daim göz oxşayır. Öz dəst-xətti ilə seçilən rəssam narı da bir təbiət möcüzəsi kimi kətan üzərinə həkk edib.

Nar bayramı ilk dəfə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və Göyçay rayon İcra Hakimiyyətinin birgə təşəbbüsü ilə 3 noyabr 2006-cı ildə keçirilmişdir.

Tədbirdə bir sıra xarici ölkə səfirləri, habelə respublikadan kənarda yaşayan göyçaylı iş adamları da iştirak edirdilər. Tədbir iştirakçıları şəhərin mərkəzi meydanında nar məhsullarından hazırlanmış şirələrə qonaq edildilər.

"Nar bayramı, ənənəvi nar festivalı və mədəniyyəti" 2020-ci ilin dekabrın 16-da YUNESKO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin 15-ci iclası zamanı YUNESKO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsi üzrə Reprezentativ Siyahısına daxil edilib.

Bayram Azərbaycanın nar paytaxtı olan Göyçayda keçirilir, burada 4 min hektar sahədə nar yetişən bağlar salınıb.

Nar bayramında Göyçay rayonun ayrı-ayrı kəndlərində yetişən nar növləri və onlardan hazırlanmış məhsullar rayon mərkəzinə gətirilir və şəhər meydanında təşkil olunmuş sərgidə nümayiş etdirilir. Şəhər mərkəzində gənc idmançıların çıxışları və konsert proqramlarına tamaşa edilir.

Nar bayramı festivalının proqramına nar yarmarkası, ondan hazırlanan şirə, Azərbaycan mətbəxinin təamlarının dequstasiyası, folklor, rəqs, mahnı qruplarının və idmançıların çıxışı, eləçə də müxtəlif müsabiqələr daxildir.

Bayramların keçirilməsində əsas məqsəd regionların təbliği, mədəni və iqtisadi potensialın nümayişi və turizmin inkişaf etdirilməsindən ibarətdir.

Mətbəənin direktoru – Fuad HÜSEYNOV
Texniki redaktor – Azər RƏSULOV
Texniki korrektor – Təranə RƏHİMOVA
Səhifələnmə – Günel ƏSƏDOVA
Çap – Oktay YUSİFOV
Cild – Gövhər NURULLAYEVA
– İlhamə MİKAYILOVA

Kitab ***"AFPoliqrAF"*** *mətbəəsində hazır diapozitivlərdən ofset üsulu ilə çap olunmuşdur.*

afpoliqraf@mail.ru
afpoliqraf@gmail.com
Tel.: +994 (12) 510 96 74
Mob.: +994 (50) 405 96 74

Yığılmağa verilmişdir: 07.04.2026
Çapa imzalanmışdır: 27.04.2026
Qarnitura: Alice, Times New Roman
Şərti çap vərəqi: 37,5
Formatı: 64x90 1/8
Tiraj: 300